# Xaker. Xakinq və onun super tarixi

**Elçin Bayramov:**

# Mingəçevir 2007 Online E-kitab PDF Mərkəzi

**Contact:**
**elchin.best@yahoo.com**

## “Onların tarixi“silsiləsindən
## Hissə - 1

Salam hörmətli istifadəçilər.
İndi xaker sözünün və bu tipdən törəyən hər bir anlamın mənasını bizlərin hər biri bilir.Amma gəlin görək dünyada ilk xakerin kim olduğunu, dünyada ilk xakerlik faktının nə vaxt baş verdiyini, dünyada ən məşhur xakerlik faktlarının hansılar olduğunu bilirsinizmi?! İndi siz onların hamısını biləcəksiniz.Bizim dediyimiz faktlar dünya kiber mütəxəsisləri tərəfindən yekdilliklə təsdiqlənmiş və Azərbaycanın virtual aləmində ilk dəfə məhz burada yerləşdirilir.

# 1960 – Xakerliyin yaranması

İlk kompüter xakerləri Massaçuset Texnoloji İnstitutunda (MİT) baş veribdir.Xakerlik " hack" sözündən götürülübdür.Həmin sözün mənası isə doğramaq, oğurluq etmək, icazəsiz iş görmək və s. kimi mənalar kəsb edir.Həmin "hack" sözü dəmiryol işçilərinin və elektropozdla məşğul olanların dilindən götürülmüşdür.Dəmir yolçularında, xüsusiylə də ABŞ dəmiryollarında sürətli işin əldə edilməsində bu söz istifadə olunurdu.

Bəzi qrup insanlar hansılar ki, hər şeylə maraqlanan insanlardır , cəhd göstərirlər ki, kompüterlərdə öz ağıllarına uyğun olaraq yeniliklər və dəyişikliklər etsinlər.Özlərinin yazmış olduğu proqramlarla hər bir kompüter mütəxəsisinin diqqətini cəlb edirlər.

# 1970 - Telefon Frikerləri və Cap'n Crunch

Frikerlər yerli və beynəlxalq telefon şəbəkələrini (setlərini) qıraraq(virtual yolla), pulsuz danışıq əldə edirlər."Frikerlərin atası" Vyetnam – ABŞ müharibəsinin iştirakçısı olmuş Con Dreyperdir.Con Dreyper frikerlik aləmində Cap'n Crunch ləqəbiylə məşhurdur.Günlərin birində Con Dreyper Cap'n Crunch adlı bir məkanda qutuda fit – suvenir tapır, hansı ki, bu saatda 2600 hers (fizikada: rəqs tezliyi ölçü vahidi) səs yayır və AT və T kimi telefon şəbəkələrində elektrik siqnalları ilə üst-üstə düşürdü.

O, ilk mavi qutunu ( BLUE BOX ) fitin içində yerlıəşdirir, hansı ki, telefonun mikrofonundakı fıştırıq pulsuz danışıq üçün şərait yaradırdı.

Amma tezliklə Esquire jurnalı " Mavi qutunun kiçik sirrləri" adlı məqalə dərc edir.Həmin məqalədə onun quruluşu və istifadəsi göstərilmişdi.Bu cür qanunsuz işdən daha çox ABŞ-ın dələduzları istifadə edirdilər."Mavi qutuların" ev şəraitində istehsalına və onların satışında kollecdəki tələbə dostlar - Stiv Voznyak və Stiv Cobs məşğul idilər.Hansı ki, bu iki məşhur şəxs sonralar Alma kompüterlərin (Apple Computer) əsasını qoyanlardan biri idilər.

# 1980 - Xakerliyin məlumat lövhəsi və xakerlərin cəmiyyəti

Telefon frikerləri bu cür uğurlu addımlardan sonra tezliklə kompüter xakerliyi ilə məşğul olmağa başlayırlar.Onlar ilk dəfə elektron lövhələrdəki elanları(BBS), Usenet xəbərlər qrupunun və elektron poçtların sınması kimi işlərlə məşğul olmağa can atırlar və bunlara da nail olurlar.BBS, hərdən isə bunları "Sherwood Forest" və "Catch-22" də adlandırırlar, tezliklə xakerlərin görüş yerlərinə çevrilirlər.Onlar burada parolların sındırılması və kredit kartlarının nömrəsinin dəyişilməsini də sınaqdan keçirirlər.

Elə bu ərəfələrdə dünya kiber tarixində ilk xaker qruplarının formalaşması baş verir.İlk xaker qrupları ABŞ-da "**Legion of Doom**" (Dağıdıcı legion) və Almaniyada "**Chaos Computer Club**" (Özbaşına kompüter klubu) yaranır.

# 1983 – Uşaq oyunları , ilk film və ilk məhbus

Uşaq oyunlarının əsasını qoyan isə Andres olmuşdur.Bu hadisə 1983-cü ilə təsadüf edir.

Xakerlər haqqında ilk film **"Döyüş oyunları"** ("War Games") adı altında cəmiyyətə təqdim olundu.Baş qəhrəman olan xaker video oyun istehsalçısının kompüterinə daxil olur, hansı ki, hərbi nüvə

münaqişəsi kimi görünürdü.Bir sözlə bu film hərbiyə aid idi.Bu cür filmlər müntəzəm şəkil alır və filmlərin təsiri nəticəsində kiber qəhrəman və anti-kiber qəhrəman psixologiyası insanlarda formalaşır.

Elə həmin il 6 yeniyetmə həbs olunur.Onlar özlərini **“oğru dəstəsi 414”** adlandırırdılar.Doqquz gün ərzində onlar 60 kompüteri sıradan çıxartmışdılar.Onların arasında Los-Alamos nüvə araşdırma laboratoriyasının da kompüteri var idi.

# 1984 - Xaker jurnalları

Müntəzəm olaraq **“2600”** adlı xaker jurnalı çap olunmağa başladı.Redaktor Emmanuel Qoldşteyn(Erik Korli onun əsl adıdır) əsas qəhrəman kimi yuxarıda qeyd etmiyim friker Cap'n Crunch -u götürürdü.Daha sonra **“Phrack”** jurnalı xakerlər və frikerlər üçün məsləhətlər və nümunələr dərc etməyə başladı.
Hazırda dünyada “2600” jurnalı satışda olan ən məşhur və nüfuzlu jurnallardan biridir.

# 1985 - Kompüter istifadəsinə görə həbsxana

Korporasiya və dövlət kompüterlərinin sürətlə və kütləvi sındırlıması ABŞ-ı narahat etməyə bilməzdi.Bu artıq bir təşvişə çevrilmişdi.Bunun da məntiqi nəticəsi kimi ABŞ Konqresi "**Computer Fraud and Abuse Act**" (Kompüter Dələduzluğu və

Həbs Aktı) adlı qanun qəbul etdi.Həmin qanuna görə kompüterləri sıradan çıxaran şəxslər həbs olunurdu.

## 1988 - Morris soxulcanı – İlk Virus

İlk kütləvi kompüterləri sıradan çıxaran proqram meydana gəldi.Kornel universitetinin tələbəsi Robert Morrisin hazırladığı bu proqram kompüterləri dondururdu.Morrisin hazırladığı bu proqram bütün ABŞ üzrə 6000 universitet və hökümət kompüterini sıradan çıxartdı.Onların bərpası qeyri-mümkün idi.Milli Təhlükəsizlik Agentliyi bölməsinin elmlər direktorunun oğlu olan Robert Morris universitetdən qovulur və 3 illik sınaq üçün icbari işlə kifayətlənir və 10.000 dollar cərimə olunur.

## 1989 - Almanlar və KQB

Məhz bu il ilk kiber satqınlar meydana çıxdı. Almaniyadan olan xakerlər hansılar ki, **Chaos Computer Club** üzvləri ilə əlaqədə idilər, ABŞ-a məlumatların ötürülməsinə görə həbs olundlar.Onlar böyük məbləğdə cərimələndilər və uzun müddətli dindirmələr başlandı.Xakerlərdən biri bu cansıxıcı dindirmələrə dözməyib intihar etdi.

# 1990 - Sundevil əməliyyatı

ABŞ-ın 14 şəhərində hökümət tərəfindən gözlənilməz kütləvi **“xaker ovu”** başlandı.Həmin xakerlər kredit kartlarının nömrələrin oğurlanmasında və telefon şəbəkələrinin sındırlmasına görə həbs olundular.Xakerlər bu məlumatları bir birlərinə çox mükəmməl yaya bilmişdilər.Amma Sundevil əməliyyatı nəticəsində xakerlərin mərkəzinə böyük zərbə vuruldu.

# 1993 – Nə üçün maşın alıram ki, ondansa qazana bilmirəm ?!

Günlərin birində canlı efirdə viktorina gedirdi.Uduşa avtomobil qoyulmuşdu.Elə bu vaxt sensasiya baş verir.Kevin Paulsen adlı xaker və onun dostları efirə gedən telefon şəbəkəsini qapayırlar.Efirə isə yalnız onların səsləri gedirdi.Nəhayət onların səsləri hamıdan çox oldu və onlar  iki ədəd “Porşe”, səyahət üçün bilet və 20.000 dollar pul uddular.

# 1994  -  Xakerlərin utilitləri artıq web-də çıxdı

Netscape Navigator brauzeri istifadəyə veriləndən sonra xakerlər sərbəst olaraq internetə özlərinin yazmış olduğu proqramları

yerləşdirməyə başladılar.Həmin vaxtdan etibarən xakerlərin ayaqları internetdə daha da açıldı.

# 1995 – Kevin Mitnik və Vladimir Levinin həbsi

Dünya xakerlərinin zirvəsi və əfsanəsi ABŞ-lı Kevin Mitnik hesab olunur.O, 1995-ci ildə FBİ(Federal Təhqiqatlar Bürosu) tərəfindən həbs olunur.Mətbuat onu əfsanə adlandırır.İndinin özündə də o həbsdədir və ona heç bir şeylə məşğul olmağa icazə verilmir.

Mütəxəsislərin fikrincə dünyada Kevin Mitnikin qarşısında ən böyük spər rus Vladimir Levindir.
30 yaşlı Levin ABŞ-ın Citibank-ından 10 milyon dollar oğurlayır və həbs olunur.Onu ABŞ hökuməti tutur.Ona 3 il iş kəsilir və oğurlanmış pullardan yalnız 400.000 dolları geri qaytarılır.Qalan pulların izi isə itirilir.Bu da həmin xakerin əfsanəviliyindən xəbər verir.

# 1997 – AOL-un sındırılması.İlk Spam axını

Xakerlərin növbəti yazdığı proqramlardan biri də AOHell idi.AOHell "Amerika cəhənnəmdə" ("America-On-Hell") deməkdir.Amerika Online adlı internet provayderi bunun

qarşısında aciz qaldı.AOHell bir növ AOL üçün qarabasmaya çevrildi.Onlar Aol-u ələ salmışdılar.Bunun köməkliyi ilə ən savadsız istifadəçi belə çox meqabaytlı poçt bombaları ilə AOL-un e-mail servisini, çatları ə digər bu tipli vasitələrini sıradan çıxarırdı.Bu cür əməliyyat savadlı xakerlərin hələ də mövcud olduğunu göstərdi.Elə həmin il minlərlə AOL istifadəçisi həmin xakerlərin qurbanı oldu.

# 1998 - Xakerlik ibadəti və Yəhudi Qrupu

“Cult of the Dead Cow” ( Ölü inəyin ibadəti) adlı xaker komandası tezliklə "Back Orifice"(Qara Deşik) adlı proqram yazırlar.Həmin proqram vasitəsiylə onlar Windows 95 və 98-i sındırmaq imkanı əldə etmişdilər.Proqramın əsas üstünlüyü ondan ibarət idi ki, kompüterə troyan göndərdikdən sonra onu ələ keçirmək mümkün olurdu.

Fars körfəzində ABŞ müdafiə nazirliyinin qərargahındakı kompüterlərə gözlənilməz hücum oldu.O vaxtlar ABŞ-ın Müdafiə Naziri olmuş Con Xemr bunu ən yaxşı və mükəmməl təşkil olunmuş xaker hücumu adlandırdı.Bu hücum nəticəsində hərbi informasiyalar ələ keçirildi.Həmin hücumu təşkil edən ölkə isə Rusiya Federasiyasının xakerləri və iki israil vətəndaşı olmuşdular. Onların başında duran isə 19 yaşlı Ehud Tenebuab olmuşdur.O, "The Analyzer" ləqəbiylə fəaliyyət göstərirdi.O, dərhal həbs edildi.Hazırda isə kompüter mərkəzlərinin birində baş texniki mütəxəsis işləyir.

Hindistan və Pakistandakı nüvə sınaqlarından sonra **“Beynəlxalq Pasifistlər**(Müharibəni inkar edənlər) **Qrupu”** nüvə mərkəzlərinin kompüterlərini sındırır və mətbuata qeyri-adi, şok və ekskluziv məlumatlar yayırlar.Həmin məlumatların arasında müharibə pislənilirdi.Burada əməliyyat meydanını xakerlər ABŞ-ın Hərbi Dəniz Qüvvələrinin stomatoloji şöbəsinin serveri seçilmişdir.

## 2000 - Çörəyə təpik / İlk krek + serial nömrələr

Xakerlərin ən məşhur əməliyyatlarından biri də “ Çörəyə təpik “ və ya işdən imtina (denial-of-service və ya DDoS-hücumları) adı ilə tanınırdı.

Rus xakerlərinin çiçəklənmə, Microsoftun isə müflislik dövrü başlayır. Rus xakerləri heç kimin ağlına gəlməz işlərlə məşğul olurlar.Onlar Windows və Office paketləri üçün 100% işlək olan əvəzedici kreklər və serial nömrələr yazırlar.Bu da ki, Microsoft kompaniyası üçün süqut idi. Amma bunun qarşısı müəyyən qədər alındı.

# 2001 - DNS-hücumları

Böyük miqyaslı DNS serverlərinin sındırlıması başlandı.Burada ən çox zərər çəkən server isə Microsoft kompaniyası oldu.Kompaniyanın bütün saytları iki sutkaya qədər istifadəçilərin üzünə bağlı olurdu.Araşdırmalar göstərdi ki, dünyada ən çox internet saytını sıradan çıxarmaq imkanı olan xakerlər Rusiyanı təmsil edirdi.Onlar Bill Qeytsi zəiflətmək üçün bunu edirdilər.Daha sonra rus xakerləri ilk dəfə olaraq ABŞ-ın dövlət saytlarını və dünyanın ən aparıcı dövlət və beynəlxalq təşkilatlarının saytlarını sıradan çıxartdılar.

# 2002 - Anti-virusların müharibəsi

Göstərilən ildən etibarən dünyada virusların qarşısını alan mərkəzlər iqtisadi rəqabətə başladlar.Onlar öz məhsullarını satmaq üçün xakerləri mərkəzlərinə cəlb edir və elə viruslar yazırdılar ki, onu yalnız özlərinin məhsulları tuta bilirdi.Ən məşhur anti-virus ABŞ-ın Norton Anti-virusu idi.Amma rus xakerləri onu tezliklə dünya bazarından kənara atdılar.Hazırda dünyada lisenziyalı ən çox satılan anti-viruslar Dr.Web və Kaspersky-dir.

# 2003 - 2007 - Sınmış saytlar və online bank

2003-2007- ci illər xakerlər üçün yalnız iki istiqamətdə inkişaf etdi.Bu illərdə xakerlər yalnız ən məşhur dövlət, beynəlxalq və yerli saytların sındırılması ilə məşğul oldular.Bir növ adi hal olan bu işdə bütün dövlətlər öz kiber güclərini ortaya qoydular.Burada ən güclü ölkələr ABŞ, Rusiya, Çin kimi ölkələrin arasında BBC kanalı Azərbaycanın da adını açıqladı. Azərbaycanın “OCAQ Web Security” komandası xalqımızın düşməni olan Mixail Qorbaçovun rəsmi saytını 20 yanvar faciəsinin il dönümünə görə sıradan çıxartdı.19-20 yanvar 2007 tarixində baş verən bu hadisəni dünyanın bütün adlı-sanlı KİV-ləri işıqlandırdılar.

**Həmin saytın sınmış forması:**



Amma ən məşhur kiber cinayət isə 2007-ci ilin fevralında rus xakerlərinin İsveçrə Bankından 1 milyon Avro pulun çıxarılması oldu.Həmin əməliyyatda 256 rus xakeri iştirak etdi.Onlar bu əməliyyat üçün 15 ay vaxt sərf etmişdilər.

## “Onların tarixi“silsiləsindən Hissə - 2-də olacaqdır:

# Dünyanın ən məşhur xakerlərinin həyatı və dünyanın ən zəngin və təhlükəsiz saytları haqqında ekskluziv məlumatlar